"Azərinşaatservis" MMC
Azərbaycan, Bakı, AZ 1108, Dərnəgül qəs., 11-ci Dağlıq k., 3105
**Tel.:** (+994 12) 447 70 03 (04) **Faks:** (+994 12) 565 04 54
www.azerinsaat.com

AZƏRİNŞAAT

**PRES RELİZ**

# "Azərinşaatservis" MMC Gürcüstanda avtomagistralın rehabilitasyasına dair müqavilə imzaladı.

*"Azərinşaatservis" MMC*
*Bakı, Azərbaycan*
*2009/06/14*

12 iyul 2009-cu ildə Azərbaycanın "Azərinşaatservis" tikinti şirkəti ilə "Minilliyin çağırışı – Gürcüstan" (MCG) fondu arasında Teleti-Koda-Asureti avtomagistralının rehabilitasyasına dair müqavilə imzalanıb.

"Minilliyin çağırışı – Gürcüstan" fondunun direktoru George Abduşelişvili və "Azərinşaatservis" MMC-nin Gürcüstandakı nümayəndəliyinin direktoru Levan Anquladzenin imzaladığı bu müqavilənin dəyəri 15 073 148,22 ABŞ dolları həcmindədir. Müqaviləyə əsasən "Azərinşaatservis" MMC "Samtsxe-Cavaxetya Yolunun Rehabilitasiyası Layihəsi" çərçivəsində Teleti-Koda-Asureti yolunun rehabilitasyasını həyata keçirəcək.

"Minilliyin çağırışı – Gürcüstan" Fondu Gürcüstan Respublikasının Minilliyin Çağırışı Programına qoşulmasından sonra 2006-cı ildə qurulub və fond Gürcüstanda bu proqram çərçivəsində layihələrin həyata keçirilməsi ilə məşğuldur.

Qeyd etmək lazımdır ki, "Teleti-Koda-Asureti avtomobil yolu hissəsinin rehabilitasiyası layihəsi"nin icrası üçün elan olunmuş tenderdə Azərbaycan şirkətləri olan "Azərinşaatservis" MMC və "Akkord İnşaat Sənaye"ASC ilə yanaşı İsrail, Türkiyə, Küveyt və yerli Gürcüstan şirkətləri də iştirak edib.

"Minilliyin çağırışı – Gürcüstan" Fondunun sifarişi və Minilliyin Çağırış Korporasiyasının (MCC) maliyyə dəstəyi ilə icra ediləcək olan bu yolun uzunluğu 19 km, eni isə 7 metrdir. Layihəyə əsasən Azərinşaatservis MMC avtomobil yolunun üstündə 1 körpü və 1 yol otürücüsü də inşa edəcək. İcra müddəti 18 ay olaraq nəzərdə tutulan bu layihənin icrası 2010-cu ilin dekabr ayında başa çatdırılacaq.

*2003-cü ildə qurulan "Azərinşaatservis" MMC Azərbaycanda və Qafqaz regionunda yüksək keyfiyyətli xidmətlər göstərməklə yol və dəmiryolu tikintisi sahəsində aparıcı şirkətlərdən biridir. Şirkət əsas fəaliyyət dairəsi olan avtomobil və dəmiryolu tikintisində A-dan Z-yə bütün növ xidmətləri öz imkanları hesabına həyata keçirir.*

***Mətbuat üçün əlaqəli şəxs:***
**Kənan KƏRİMLİ,** İctimaiyyətlə Əlaqələr və Mətbuat Meneceri
**Tel.:** (+994 12) 447 70 03 (04)
**Mob.:** (+994 55) 208 20 87, (+994 50) 255 38 86
**E-mail**: k.karimli@azerinsaat.com
**www.azerinsaat.com**